# Abadlıq insanlara rahatlıq gətirir

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Kiçik Əmili kənd sakinləri ilə görüş-qəbulu keçirilmişdir.***



Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak etmişlər.

RİH-nin başçısı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkənin bütün regionlarının, eləcə də Qəbələ rayonunun sürətli iqtisadi və mədəni inkişafından tədbirdə söz açmış, aparılan böyük tikinti-quruculuq işlərindən, adamların maddi rifahının yaxşılaşdırılması və məşğulluqlarının təmin edilməsi istiqamətində görülən işlərdən danışmışdır.

O, çıxışında həyata keçirilən tədbirlər nəticəsində rayonumuzun yaşayış məntəqələrinin simasının gündən-günə dəyişdiyini, abadlaşdığını diqqətə çatdırmış, yeni-yeni məktəblərin, uşaq bağçalarının, sosial obyektlərin, yolların,



körpülərin, turizm və idman komplekslərinin tikildiyini və bütün bunların insan amilinə xidmət etdiyini vurğulamışdır.

Son zamanlar Kiçik Əmili kəndində də yeni məktəbin, icra nümayəndəliyi üçün inzibati binanın tikildiyini, artezian quyusunun qazıldığını bildirən RİH başçısı kənddə taxılçılığın, baramaçılığın və meyvəçiliyin inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlərin görüldüyünü demişdir. O, hazırda Böyük Əmili-Kiçik Əmili-Zalam-Yenikənd-Bılıx-Əmirvan avtomobil yolunun çəkilişinin aparıldığını diqqətə çatdırmışdır.

Görüş-qəbulda iştirak edən kənd sakinləri rayonumuzda görülmüş işlərə görə ölkə başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

Çıxış edənlərdən Xasməmməd Səlimov, Elməddin Gəncimov, Zenfira İsmayılova, Yaqub Musayev, Müsavər Səmədov və başqaları kənddə əlavə artezian quyusunun qazılması, mövcud transformatorun gücünün artırılması, kəndarası yolların təmir edilməsi, ərazidə uşaq bağçasının açılması, tibb məntəsi üçün yeni binanın inşa olunması ilə bağlı təkliflər irəli sürmüşlər.

RİH başçısı səyyar görüş-qəbulda qaldırılan məsələləri aidiyyəti təşkilatların rəhbərləri ilə müzakirə edərək icrası üçün konkret tapşırıq və tövsiyələr vermişdir.

**“Qəbələ”**

---

***Qəmərvan kəndində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının növbəti səyyar görüş-qəbulu keçirilib.***

***Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edib.***

# Sosial inkişaf dövlət qayğısının nəticəsidir

Tədbiri açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Prezident İlham Əliyevin diqqət və qayğısı ilə son illər ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da bütün yaşayış məntəqələrində, o cümlədən Qəmərvan kəndində həyata keçirilən abadlıq-quruculuq işlərindən danışıb. Regionların sosiai-iqtisadi inkişafı dövlət proqramında icrası nəzərdə tutulan yeni tədbirlər barədə görüş iştirakçılarına ətraflı məlumat verən RİH-nin başçısı əhalinin rifahının yüksəlməsində kənd təsərrüfatının mühüm rol oynadığını, aqrar sektorun kənd adamlarını daha təminatlı etdiyini bildirib. Bu baxımdan özünüməşğulluğun böyük əhəmiyyətə malik olduğunu və Qəmərvan kəndində də bu istiqamətdə xeyli işlərin görüldüyünü, xüsusilə ərazidə heyvandarlığın və əkinçiliyin daha çox inkişaf etdiyini vurğulayıb.

Qeyd olunub ki, özünüməşğulluğun təşkilində və aqrar



sektorda iş görmək istəyən bütün kənd sakinlərinə bundan sonra da hərtərəfli dövlət qayğısı və dəstək göstəriləcəkdir.

Sonra kənd sakinləri dinlənilib.

Görüş iştirakçıları rayonumuzda həyata keçirilən sosial layihələrin uğurlu icrasına görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Hacı Ziyadov, Elman Rüstəmov, Rəna Hacıyeva, İbrahimxəlil Sərkarov, Xatirə Xasməmmədova və başqaları çıxışlarında kənddə işıq xətlərinin təmir edilməsini, Bum çayında sahilbərkitmə məqsədilə beton bəndin tikilməsini, məktəbin istilik şəbəkəsinin duru yanacaqdan təbii qaz sisteminə keçirilməsini və tibb məntəqəsinin inşa edilməsini xahiş ediblər.



Rayon icra hakimiyyətinin başçısı verilən təkliflərin icrası barədə aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

**“Qəbələ”**

**İlkin Vəlizadə (foto).**

---

# Tibbi müayinə aksiyası davam edir

Ölkəmizdə əhalinin sağlamlığının qorunması məqsədilə davamlı tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyəsinə uyğun olaraq, altıncı ildir təşkil edilən əhalinin pulsuz tibbi müayinəsi aksiyası da məhz belə tədbirlərdəndir.

Fevralın 12-dən başlanan tibbi müayinələr rayonumuzda mütəşəkkil qaydada təşkil olunub. Müayinələrin yüksək səviyyədə keçirilməsini təmin etmək üçün rayon icra hakimiyyətində xüsusi komissiya yaradılıb, tədbirlər planı tərtib edilib. Aksiyada 18 yaşdan yuxarı 74 mindən çox insanın müayinədən keçirilməsi nəzərdə tutulur.

Tibbi müayinələrin keçirilməsi üçün rayon mərkəzi



xəstəxanası, müalicə diaqnostika mərkəzi, eləcə də qəsəbə və kənd tibb məntəqələrində hər cür şərait yaradılıb. Müayinələr əvvəlcədən tərtib olunmuş cədvəl əsasında həyata keçirilir. İlk növbədə, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda çalışan işçilər müayinə olunurlar. Martın 1-dən qəsəbə və kəndlərdə yaşayan əhali də tibbi müayinələrə cəlb olunub.

Aksiyada bugünədək 6460 nəfər tibbi müayinədən keçib. Müayinə olunanların 444 nəfəri ambulator, 67nəfəri isə stasionar müalicəyə cəlb edilib. Bundan əlavə, müxtəlif xəstəliklər aşkar edilən 32 nəfər daha geniş müayinə və müalicə üçün paytaxtın tibb müəssisələrinə göndərilib, 25 xəstə üzərində isə cərrahiyyə əməliyyatı aparılıb.

Müayinədən keçən qəbələlilər insanların sağlamlığının qorunmasına yönələn bu xeyirxah aksiyaya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirirlər.

**“Qəbələ”**

---

# Qəbələdə beynəlxalq forum keçiriləcək

Aprelin 12-15-dək Qəbələdə "STİS" - işıqkeçirən şəffaf qoruyucu istehsalçılarının beynəlxalq forumu keçiriləcək.

Tədbirə Rusiya və MDB-də pəncərə və şüşə istehsalı ilə məşğul olan 250 iştirakçı qatılacaq. Tədbir iştirakçıları forum çərçivəsində Azərbaycan mədəniyyəti ilə də tanış olacaqlar.

Qeyd edək ki, 15 il ərzində forum Çexiya, Almaniya, Niderland, Portuqaliya, İspaniya, Türkiyə, İtaliya, Avstriya, Gürcüstan və digər ölkələrdə təşkil olunub. "STİS" forumu 2005-ci ildən iri müəssisələrin pəncərə və şüşə sahələri sahiblərini, top-menecerləri, o cümlədən Rusiya, Belarus, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Azərbaycan, Ukrayna, Polşa, Finlandiyanın daşınmaz əmlak və investisiya strukturları bazarının nüfuzlu nümayəndələrini özündə birləşdirir.